İqtisadi İslahatların
Təhlili və Kommunikasiya
Mərkəzi



# İXRAC İCMALI

May 2026

www.ereforms.gov.az
info@ereforms.gov.az

## "BU GÜN AZƏRBAYCANIN İQTİSADİ FƏALİYYƏTİ ÇOX MÜSBƏTDİR. APARICI BEYNƏLXALQ REYTİNQ AGENTLİKLƏRİNDƏKİ REYTİNQİMİZ İLDƏN-İLƏ ARTIR

Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur".



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 1 iyun 2026-cı il tarixində Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışından**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ____ səh. 17

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2026-cı ilin yanvar-aprel ayları ərzində qeyri-neft-qaz ixracı 1,1 milyard ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın 2026-cı il üzrə may sayını təqdim edib. İcmala əsasən, 2026-cı ilin yanvar-aprel aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 13% artaraq 1,1 milyard ABŞ dolları təşkil edib.

Cari ilin yanvar-aprel aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4 dəfə, pambıq iplik 2,3 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 71%, pambıq lifi 49,9%, meyvə-tərəvəz 22,1%, alüminium və onlardan hazırlanan məmulatlar 32,2%, çay 12,1%, spirtli və spirtsiz içkilər isə 9,4% artıb.

2026-cı ilin yanvar-aprel aylarında aqrar məhsullar üzrə ixrac 28,3% artaraq 298,3 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 31,6% artaraq 119 milyon ABŞ dolları təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 29,1% artaraq 417,3 milyon ABŞ dollarına bərabər olub.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (131,1 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq lifi (92,9 milyon ABŞ dolları) ikinci, mis filizləri (87,9 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin aprel ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (35,89 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq lifi (35.83 milyon ABŞ dolları) ikinci, tomat (30 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin yanvar-aprel aylarında Rusiya Federasiyasına 306,6 milyon ABŞ dolları, Türkiyəyə 219,2 milyon ABŞ dolları, Gürcüstana 175,8 milyon ABŞ dolları, İsveçrəyə 139,5 milyon ABŞ dolları, Ukraynaya isə 56 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2026-cı ilin aprel ayında Rusiya Federasiyasına 94,9 milyon ABŞ dolları, Türkiyəyə 79,3 milyon ABŞ dolları, Gürcüstana 55,1 milyon ABŞ dolları, İsveçrəyə 36,1 milyon ABŞ dolları, Ukrayna 13,5 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



# 2026-CI İLİN YANVAR-APREL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)*

2026 İXRAC İCMALI may




* qeyri-monetar qızıl istisna olmaqla

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN APREL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026 İXRAC İCMALI may

2025 | 2026

+19%

200 mln



238 mln

* qeyri-monetar qızıl istisna olmaqla

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN APREL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026 İXRAC İCMALI may




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN YANVAR-APREL AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2025-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2026 İXRAC İCMALI may

Aqrar məhsullar

Aqrar-sənaye məhsulları

2025/2026
+29.1%

417,3 mln $



2025/2026
+28.3%

298 mln $

119 mln $

2025/2026
+31.6%

# 2026-CI İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI may



# 2026-CI İLİN APREL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI may



# 2026-CI İLİN YANVAR-APREL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026
İXRAC
İCMALI
may



# 2026-CI İLİN APREL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI may

| | 2026 | 2025 |
|---|---|---|
| Qızıl | 35.89 | 30.2 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 35.83 | 22 |
| Tomat (pomidor) | 30 | 30.1 |
| Mis filizləri və konsentratları | 27.1 | ? |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 14.4 | 10.7 |
| PE İlkin formalı propilen sopolimerləri | 11.5 | 9.9 |
| Çiyələk | 11.1 | 2.2 |
| Meşə fındığı | 10.9 | 10.4 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 9.5 | 9.4 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2026-cı ilin yanvar-aprel ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "AGRARCO" MMC, "Baku Steel Company" QSC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına "SOCAR POLYMER" MMC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "AzerGold" QSC, "Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, Azərbaycan Respublikasi Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərenerji" ATSC, "Socar Cape" MMC, "Naxçıvan Enerji" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2026-CI İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI may



# 2026-CI İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzerGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2026-cı ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 8.7 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2026-cı ilin yanvar - aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) dünyanın 32 ölkəsindən olan 90-a yaxın şirkətə 8,7 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidmətləri ixrac edib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 64%-ni təşkil edib.

Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,4 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1 milyon ABŞ dolları ilə Lüksemburq, 381,1 min ABŞ dolları ilə Türkiyə, 370 min ABŞ dolları ilə Pakistan, 187,2 min ABŞ dolları ilə İsveç qərarlaşıb.

# 2026-CI İLİN YANVAR-APREL AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 8.7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat